**Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən kiçik həcmli gəmilərin təsnifatı haqqında**[i]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 dekabr tarixli 511 nömrəli Fərmanının 5.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiyaların tələblərinə uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən, aşağıda göstərilən gəmilər kiçik həcmli gəmilər hesab edilir:

a) tankerlər, sərnişin, bərə, ro-ro, quru yük, avtomobil daşıyan, hərbi, yardımçı hərbi, yedək, dövlət mülkiyyətində olan və ya dövlət tərəfindən istismar olunan gəmilər istisna olmaqla, ümumi tutumu 300 registr tondan və mühərrikinin gücü 250 kvt-dan az olan bütün növ balıqçı, gəzinti və idman gəmiləri;

b) asma mühərrikinin sayından və gücündən asılı olmayaraq, asma mühərriklə hərəkət edən bütün növ gəmilər.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 23 aprel 2008-ci il
№ 97

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

**1.** 10 iyun 2013-cü il tarixli **108** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 15 iyun 2013-cü il, № 130; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 06, maddə 722)**

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

[i] 10 iyun 2013-cü il tarixli **108** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 15 iyun 2013-cü il, № 130; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 06, maddə 722)** ilə adında və 1-ci hissəsində "**Azərbaycan Respublikasının bayrağı**" sözləri "**Azərbaycan Respublikasının Dövlət bayrağı**" sözləri ilə əvəz edilmişdir.